

Vəfa Hüseynova,
Azərbaycan Müəllimlər İnstitutunun
əlavə təhsil fakültəsinin metodisti
Email: vefa.hiseynova@mail.ru

# BƏXTİYAR VAHABZADƏNİN

## HƏYAT VƏ YARADICILIĞINA BİR NƏZƏR

**Çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən, bu istiqamətdə müstəsna xidmətləri olan aparıcı sənətkarlardan biri də Xalq şairi Bəxtiyar Vahabzadədir**

**"B.Vahabzadə yaradıcılığında vətən və onun taleyi mövzusu bir mərhələ və ya dövr deyildi: o bütün yaradıcılığı boyu özünü bütöv və böyük Azərbaycanın milli şairi kimi dərk etmiş və bu missiyanın daşıyıcısı olması ilə qürur duymuşdur. Elə xalqımız da bu ölməz sənətkarı ilə qürur duyur. Bu şəxsiyyəti gələcək nəsillərə tanıtmaq, qəlblərindəki Bəxtiyar sevgisini daha da artırmaq hər bir elm, qələm adamının vətəndaşlıq görəvlərindən biridir**





Bəxtiyar Vahabzadə doğma Şəkidə



Rassam Toğrul Nərimanbəyovla

Yaşamağın mənasını yanmaqda görən Xalq şairi öz xalqına üz tutub deyirdi:

***Yaşamaq yanmaqdır, yanasan gərək,***
***Həyatın mənası yalnız ondadır.***
***Şam əgər yanmırsa, yaşamır demək,***
***Onun damənası yanmağındadır!***

Böyük şairin – şirəsini el-ağız ədəbiyyatından, ətrini vətən torpağından, ruhunu doğma ana dilindən alan, həyatın bütün sahələrinə, insan qəlbinin ən incə, ən dərin guşələrinə nüfuz edən əsərlərində keçmişimiz də, bu günümüz, gələcəyimiz, sevincimiz, kədərimiz də, zaman, həqiqət, gerçəklik, hətta xəyal da bütün mümkün reallıqlarda əks olunub. Onun poeziya qanadlı sevgi-məhəbbətinin məskəni yaşıl çöllər, uca-qoca dağlar, gömgöy dənizlər, masmavi səmalardır. O, öz azərbaycançılıq məfkurəsi ilə bütün milli ətrafını özünüdərkə çağıraraq, tək elə ədəbiyyatımızın deyil, insanlığın inkişafına da töhfələr vermişdir. Qədim dövrlərdən bəri milli-mədəni tariximizin müxtəlif mərhələlərində baş vermiş hadisələrin, böyük şəxsiyyətlərin parlaq simalarının poetik təbliği ustad sənətkarın daimi diqqət mərkəzində dayanırdı.

Bəxtiyar Vahabzadənin şeir dünyasına baş vurdunsa, həyat səninçün cansıxıcı, mənasız ola bilməz. Çünki Bəxtiyar ürəyinə yatdığı dünyanın qiymətli olan hər şeyini – həyatdakı bütün yenini və köhnəni, bütün ümid və itkiləri, milli və bəşəri qələbələri, ağrı-acıları



... abzada (soldan), ... Kamran Mammadov v... başqaları. Hacıkənd. 1949-cu il



öz oxucusu ilə bir "poritet"lik, "tərəf-müqabil"lik əsasında bölüşür, onu sevir, ona ürək-dirək verir, onu yaşadır. O, cismən yaşamayanları da yaşadır:

***Qatil gülləsinə qurban gedirkən,***
***Gözünü sabaha dikdi şəhidlər.***
***Üçrəngli bayrağı öz qanlarıyla***
***Vətən torpağına əkdi şəhidlər.***
("Şəhidlər" poemasından)

Haqsızlığa qarşı üsyankarlıq Bəxtiyar Vahabzadə yaradıcılığının əsas leytmotivlərindəndir. Fərdi, ictimai-siyasi ədalətsizliklərə qarşı milli barışmazlığı, nifrəti, kini də milli sevgisi qədər güclü olan şair, hədəfin kimliyindən, nəçiliyindən asılı olmayaraq, onu böyük ustalıq-ustadlıqla qamçılayır. Bu baxımdan, şairin - iki əsr öncə Vətənimizin İran və Rusiya arasında bölüşdürülməsi müqaviləsinə həsr etdiyi və ötən əsrin 60-cı illərində "Nuxa fəhləsi" qəzetində dərc olunması ilə böyük siyasi qalmaqala səbəb olan "Gülüstan" poeması xarakterikdir. Həmin poemadan bir parçaya diqqət yetirək:

***"Qoyulan şərtlərə razıyıq" – deyə,***
***Tərəflər qol çəkdi müahidəyə...***
***Tərəflər kim idi?***
***Hər ikisi yad!***
***Yadlarmı edəcək bu xalqa imdad?!***
***Qoy qalxsın ayağa ruhu Tomrisin***
***Babəkin qılıncı parlasın yenə.***
***Onlar bu şərtlərə sözünü desin,***
***Zənciri kim vurdu şir biləyinə?***
***Hanı bu ellərin mərd oğulları,***
***Açın bərələri, açın yolları.***
***Bəs hanı bu əsrin öz Koroğlusu***
***Qılınc Koroğlusu, söz Koroğlusu?***
("Gülüstan" poemasından)

Vurğulamaq lazımdır ki, Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun qüvvətlənməsi və bədii-siyasi sənətkarlıq imkanlarının genişlənməsində Bəxtiyar Vahabzadənin müstəsna xidmətləri vardır. Dilimizin poetik imkanlarından məharətlə bəhrələnən şair ictimai-fəlsəfi məzmunlu lirikanın gözəl nümunələrini yaratmışdır. Onun mənəvi ucalıq, dünya-zaman-insan qarşılıqları, təbiət və insan, həyatın məqam və mənası və digər düşüncələrlə zəngin poeziyası ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmışdır (5. səh. 58).

**"Gənc nəslin tərbiyəsində Bəxtiyar Vahabzadə dramaturgiyasının – tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin də böyük rolu olmuşdur. Müasir həyatdakı ziddiyyətlərin, qarşıdurmaların, mənəvi sarsıntıların əsl sənətkarana təsvirilə yanaşı, yüksək, pak, ülvi hisslərin təcəssümü Vahabzadə yaradıcılığında ayrıca bir dramaturji mərhələdir.**

Bəxtiyar Vahabzadə Azərbaycanın ədəbiyyatşünaslıq elminə də töhfələr vermişdir. Alimin şifahi ədəbi irsimizin, klassik





və müasir Azərbaycan ədəbiyyatı nümayəndələrinin öyrənilməsi təbliği sahəsində axtarışlarının, çalışmalarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət daim dərin maraqla qarşılamışdır. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil etmişdir. Şair respublikamızın hüdudlarından uzaqlarda ölkəmizi layiqincə təmsil edərək, milli mədəniyyətimizin təbliği, ədəbi irsimizin dünyaya tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir. Ədəbi-bədii və elmi yaradıcılığını uğurlu pedoqoji fəaliyyətlə əlaqələndirən Bəxtiyar Vahabzadə Bakı Dövlət Universitetinin professoru kimi, uzun illər yüksək ixtisaslı kadrlar hazırlanması işinə töhfələr vermişdir.

Bir neçə çağırış Azərbaycan Respublikası Ali Sovetinin və Milli Məclisinin deputatı seçilmiş Bəxtiyar Vahabzadə xalqımızın həyatının ən çətin, mürəkkəb anlarında irəli durmuş, baş verən taleyüklü hadisələrə münasibətdə əsl vətənpərvər ziyalı mövqeyi nümayiş etdirmişdir.

Bəxtiyar Vahabzadənin ədəbi, elmi və ictimai fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmişdir. O, bir sıra orden və medallara, o cümlədən Azərbaycan Respublikasının "İstiqlal" ordeninə layiq görülmüşdür. ❖



**Ədəbiyyat**


1. Milli ruhun poetik ensiklopediyası. Bəxtiyar Vahabzadə əsərlərinin 11 cildliyi haqqında. "Ədəbiyyat qəzeti". Bakı – 2007.
2. S.Hüseynoğlu. "Türk dünyasının Bəxtiyarı". "Ədəbiyyat qəzeti", Bakı – 2009.
3. N.Cəfərov. "Bəxtiyar Vahabzadə". "Azərbaycan" nəşriyyatı. Bakı – 1996.


**Резюме**


В статье о творчестве Бахтияра Вахабзаде представлен анализ произведений писателя, созданных на основе национальных духовно-патриотических традиций. Поэт является ярким представителем азербайджанской литературы XX века. Бахтияр Вахабзаде известен далеко за пределами Азербайджана как поэт, драматург, талантливый ученый и публицист, почетный и мужественный общественный деятель, а также как простой и сердечный человек. Неслучайно его книги, публицистические и сценарные работы переведены на многие языки мира, включая английский, французский, немецкий, персидский, польский, испанский, венгерский и пользуются большим интересом и любовью.


**Ключевые слова:** творчество, драматический, произведение, народ, поэт.

**Summary**


National spiritual costs in the article in the creative work of analysis of the works of by B.Vahabzada creative work of the patriotic feeling have been marked. The twentieth century is not notable representative poetical thought, people poet of Azerbaijan literature name of the happy Vahabzada only in our republic completely, thinker is as famous in large quantities as poet, lyrical dramatist, talented scientist and publicist, honourable and courageous public figure, simple and cordial man in far from his boundaries. He is not accidental that books, dramatics of his works, poem and publicist information in many languages of the world, including English, French, German, Persian, Pole, Spanish Hungarian and translated to languages of the people and these works have been met with/by very big interest and love.


**Keys words:** literary activities, dramatic, people, poet.